Təsdiq edirəm:

İlqar İbrahimov , "BakuBus" MMC-nin Direktoru

19 mart 2020-ci il

**"BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin**

**İNTEQRASİYA OLUNMUŞ MENECMENT SİSTEMİ ÜZRƏ SİYASƏTİ**

Baku Bus MMC-də **İSO 9001:2015, İSO 14001:2015** və **İSO 45001:2018** standartlarının tələblərinin əsasında İnteqrasiya olunmuş menecment Sistemi (İMS) tətbiq edilmişdir.

İMS üzrə siyasət müəssisənin məqsədlərinə, kontekstinə uyğundur və müəssisənin strateji istiqamətini dəstəkləyir.

**İMS üzrə Siyasətin əhatə dairəsinə müəssisənin aşağıdakı fəaliyyətləri daxildir:**

Bakı şəhərinin inzibati ərazisində avtobuslar vasitəsilə sərnişindaşıma xidmətlərinin həyata keçirilməsi.

**Müəssisənin maraqlı tərəflərə dair öhdəlikləri aşağıdakı kimidir:**

1. ***Nəqliyyat istifadəçiləri:***
   a. Bakı şəhərinin inzibati ərazisində avtobuslar vasitəsilə sərnişindaşımanın həyata keçirilməsi üzrə xidmətlərin yüksək səviyyədə təmin edilməsi

2. ***Mülkiyyətçilər /Təsisçilər:***
   a. Müəssisənin qarşısına qoyulan vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsi
   b. Müəssisənin gəlirlərinin daima artırılması

3. ***İşçilər:***
   a. Müəssisədə tətbiq olunmuş İnteqrasiya olunmuş menecment Sisteminin davamlı olaraq təkmilləşdirilməsi
   b. İş şəraitində sağlamlıq və təhlükəsizliyin təmin edilməsi üçün işlə bağlı zədələnmə və xəstəliklərin qarşısının alınması
   c. Təhlükələrin aradan qaldırılması, sağlamlıq və texniki təhlükəsizlik üzrə risklərin azaldılması
   d. İşçilərin İnteqrasiya olunmuş menecment Sisteminin təkmilləşdirilməsi məsələlərində məsləhətləşməsinin və həmin işlərə cəlb olunmasının təmin edilməsi

4. ***Müvafiq icra hakimiyyəti orqanları:***
   a. Müəssisənin fəaliyyətinə şamil olunan qanunvericilik və digər tələblərin yerinə yetirilməsi
   b. Ətraf mühitin qorunması, o cümlədən çirklənmənin qarşısının alınması və müəssisənin konteksti nöqtəyi nəzərindən digər konkret öhdəliklərin yerinə yetirilməsi

5. ***Cəmiyyət:***
   a. Sosial proqramları və layihələri tətbiq etməklə Cəmiyyətin işinin təkmilləşdirilməsinə töhfənin verilməsi.

**İMS üzrə siyasətin əsas prinsipləri aşağıdakılardır:**

1. Fəaliyyətimizi idarəetmə texnologiyalarının daimi təkmilləşməsi üçün aparıcı vasitələrdən olan İSO 9001:2015 - Keyfiyyət idarəetmə sistemi, İSO 14001:2015 - Ekoloji menecment sistemi və İSO 45001:2018 - Əməyin mühafizəsi və peşə sağlamlığının qorunması üzrə idarəetmə sistemi üzrə beynəlxalq standartın tələblərinə uyğunlaşdırılması və davamlı olaraq təkmilləşdirilməsi;
2. Fəaliyyətimizlə bağlı qüvvədə olan qanunverici sənədlərin, hüquqi və texniki-normativ aktların tələblərinə riayət edilməsi;
3. Müəssisənin fəaliyyətinə təsir edə biləcək əhəmiyyətli maraqlı tərəflərin, daxili və xarici faktorların müəyyən edilməsi;
4. Sərnişindaşıma fəaliyyətinin keyfiyyətinə təsir göstərə biləcək risk və ehtimalların müəyyən edilməsi və nəzarət altına alınması;
5. Fəaliyyətimiz nəticəsinə əmələ gələn ekoloji aspektlərin müəyyən edilməsi və nəzarət altına alınması;
6. Sərnişinlərimizə göstərilən xidmətin keyfiyyətinin yüksək səviyyədə təmin edilməsi və fasiləsiz olaraq inkişaf etdirilməsi;
7. Bütün aidiyyatı dövlət strukturları ilə səmərəli işbirliyi nəticəsində əldə edilmiş zəngin təcrübənin sərnişinlərimizin məmnunluğuna yönəldilməsi və onların məmnunluğunun daim yüksək səviyyədə saxlanılması;
8. Əməkdaşlarımızın bilik, bacarıq və təcrübə səviyyəsinin daima artırılması;
9. Bakı şəhərinin inzibati ərazisində avtobuslar vasitəsi ilə sərnişindaşıma xidmətlərinin həyata keçirilməsi proseslərinə təsir göstərə biləcək keyfiyyət və əməyin mühafizəsi sahəsində risklərinin və ehtimalların müəyyən edilməsi və nəzarət altına götürülməsini təmin etmək;
10. Sərnişinlərin tələblərinin və gözləntilərinin ən yüksək səviyyədə yerinə yetirilməsini təmin etmək.

**"BakuBus" MMC-nin rəhbərliyi** İnteqrasiya olunmuş menecment Sistemi üzrə siyasətin işçi heyətinin diqqətinə çatdırılmasını, bütün əməkdaşlar tərəfindən onun tələblərinə əməl edilməsini, təkmilləşdirilməsini və əhəmiyyətli maraqları tərəflər üçün əlçatan olmasını təmin edir, eyni zamanda bu siyasətin səmərəliliyi davamlı olaraq nəzarət altında saxlanılır.